**Vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxslərdən malların alış aktı ilə alınması və vergilər**

Qulu Soltanov,
sərbəst auditor

Məlumdur ki, ölkəmizdə yaşayan və vergi ödəyicisi kimi uçota alınmaq hüququ olan vətəndaşların əksəriyyəti qanunvericiliyə uyğun olaraq zərurət yaranmadığına görə vergi orqanlarında uçota alınmamışlar. Əmək qabiliyyətli vətəndaşlar müxtəlif mənbələrdən bəhrələnirlər. Məsələn, əhali əmək müqavilələri cərçivəsində işləməklə, hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq fəaliyyəti göstərməklə, mülkiyyətiçi kimi hüquqi şəxslər yaradaraq onların fəaliyyətinin nəticələrindən bəhrələnməklə gəlirlər əldə edirlər. Lakin elə təsərrüfat əməliyyatları vardır ki, vətəndaşlar bu əməliyyatın iştirakçısı olduğu halda vergi ödəmə və ya bu əməliyyatlar barədə hər hansı bəyannamə və ya hesabat vermə öhdəliyi yaranmır.

Öz şəxsi təsərrüfatındakı hər hansı əşyanı satmaq istəyən adi şəhər sakini və ya öz şəxsi təsərrüfatındakı tərəvəz məhsullarını müstəqil olaraq satmaq istəyən adi kəndli, vergi prosesləri haqqında tam təsəvvürü olmadığına görə, öz əşyasını (malını) satmaqla vergiyə cəlb olunacağını zənn edir və bu səbəbdən əşyasını satmaqdan çəkinir. Yaxud da ona öz əşyasını rəsmi satdırmağa çalışan alıcı sahibkarlar alqı-satqını rəsmiləşdirmək üçün çox əziyyət çəkməli olurlar. Sadə vətəndaşla aparılan alqı-satqı proseslərini sənədləşdirməyin çətin olması hazırda müəyyən qədər problemli məsələlərdən biridir. Bu cür vətəndaşları Vergi Məcəlləsinə uyğun olaraq dolayısı ilə «VÖEN təqdim etməyən» və ya «vergi ödəyicisi kimi uçota alınmayan» adlandırmaq olar. Belə vətəndaşların əlində olan mallar kifayət qədər əhəmiyyətli fəaliyyət göstərən vergi ödəyicilərinin (hüquqi şəxslər və fərdi sahibkarların) apardığı təsərrüfat əməliyyatlarının əsas predmetinə çevrilə bilər. Məsələn, restoran xidmətlərinin göstərilməsi ilə məşğul olan sahibkarlar əsasən kənd təsərrüfatı mallarının alınması üçün kənd təsərrüfatı malları satılan bazarlara və ya adi vətəndaşlara müraciət etməli olurlar.

Yetişdirdiyi məhsulunu bazarda satan adi vətəndaşlar isə sənədləşmə sahəsində bilgilərinin az olmasına görə hər hansı sənədləşmədən süni olaraq yayınmağa çalışırlar ki, bu da onlardan özlərinə zəruri olan malları almaq istəyən sahibkarın fəaliyyətində baş verən təsərrüfat əməliyyatlarının sənədləşdirilməsini çətinləşdirir. Nəticədə, sahibkar aldığı malların mədaxilini sənədli hala gətirmək üçün adi qaydada daxili akt tərtib etməyə üstünlük verir. Həmin akt tərtibatına görə tam rekvizitli olmadığı üçün, yəni aktda satıcı tərəfin konkret kimliyi bilinmədiyinə və satıcı tərəfin imzasının olmadığından təsərrüfat əməliyyatının baş vermə faktını təsdiq etmək üçün əsaslı hesab edilmir. Bu cür faktlar bu günün reallığı olsa da, vergi ödəyicisi sənədləşmələrin tam rekvizitlərə cavab verməsini diqqətdə saxlamalıdır.

Lakin vergi və digər qanunvericilyin konkret müddəaları vergi ödəyicisinin belə vəziyyətlərdə çıxış yolu tapmasına imkan yaradır. Vergi Məcəlləsinin 102.1.11-ci maddəsinə əsasən fiziki şəxslərin bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından aldıqları gəlirləri gəlir vergisindən azaddır. Həmin maddəyə əsaslanaraq sahibkar kənd təsərrüfatı məhsulları aldığı istehsalçı kəndlini onun hər hansı vergi ödəməyəcəyinə inandırmağa çalışmalıdır ki, satıcı kəndli sahibkarla sənədləşmə aparmasına razılıq versin. Qeyd etmək istərdik ki, kəndlinin sənədləşmədən imtina etməsi onun hər hansı məsuliyyətlə üzləşməsinə səbəb olmur.

Kənd təsərrüfatı məhsullarından başqa, digər daşınar malların (əşyaların) təqdim olunması ilə bağlı vergi öhdəliklərinin yaranmaması haqqında Vergi Məcəllәsinin 102.1.7-ci maddəsinə əsasən göstərmək olar ki, fiziki şəxsin hazırkı sahibkarlıq fəaliyyətində və əvvəllər sahibkarlıq fəaliyyəti göstərmiş olduğu dövrlərdə sahibkarlıq məqsədləri üçün istifadə etmədiyi daşınar maddi əmlakın (qiymətli daşlar və metallar, qiymətli daşlar və metalların məmulatları, incəsənət əsərləri, əntiq əşyalar istisna olmaqla) təqdim edilməsindən gəlirləri gəlir vergisindən azaddır. Həmin maddəyə əsaslanaraq vergi ödəyicisi hər hansı daşınar əşyasını almaq istədiyi adi vətəndaşı onun hər hansı vergi ödəməyəcəyi barədə yaxşı məlumatlandırması aparılan əməliyyatın sənədləşdirilməsi üçün məqsədəmüvafiq olardı.

Vergi ödəyicisi həmin fiziki şəxslər barədə Vergi Məcəlləsinin 73-cü maddəsinə əsasən vergi orqanlarına məlumat verməlidir. Məlumat verildikdən sonra vergi orqanı tərəfindən həmin fiziki şəxslərin fəaliyyəti araşdırıla bilər. Araşdırıldıqdan sonra əgər həmin kəndli öz istehsal etdiyi kənd təsərrüfatı mallarını satdığı və ya həmin adi vətəndaş sahibkarlıq məqsədləri üçün istifadə etmədiyi əşyanı satdığı bəlli olarsa, onların narahat olmağına dəyməz. Əks halda, yəni kənd təsərrüfatı mallarını satan «alıb-satandırsa» və ya əşyanı satan sahibkarlıq məqsədləri üçün istifadə etdiyi əşyanı «satandırsa» vergi orqanları tərəfindən həmin fiziki şəxslərin vergiyə cəlb olunması istisna edilmir.

Kəndlidən kənd təsərrüfatı mallarını və ya vətəndaşdan hər hansı əşyanın alınmasını alış aktı ilə sənədləşdirmək uçotun bu günkü sənədləşmə siyasətinə zidd deyildir. Əsas odur ki, alış aktında alınan malların adları, ölçü vahidi, miqdarı, qiyməti, məbləği, malı satan fiziki şəxsin şəxsiyyət vəsiqəsinin rekvizitləri, onun imzası və digər zəruri məlumatlar əks etdirilsin, həmçinin bu fiziki şəxslər barədə malları alan vergi ödəyicisi tərəfindən vergi orqanına məlumat verilsin.